# GÖYÇAYI SEVƏNLƏR, GÖYÇAYI SEVDİRƏNLƏR...

## (Nar festivalından reportaj)



*Məzahir ƏHMƏDZADƏ*

**...Buludları ilə, hərdən soyuq, hərdən ılıq nəfəsilə, dağlar arxasından gülümsəyən günəşilə başlanan, yaşanan gözəl bir noyabr səhəri. Xan çinarların, telli qovaqların yarpaqları qızarmağa başlayanda bu səhərin gəlişinə, bu günəşin şəfəqinə nəğmələr qoşular, türkülər oxunar. Bu şəhərin küçələri, meydanları əlvan-əlvan göz oxşayar. Elə bil ki, bu günün, bu səhərin eşqinə ilin bütün fəsilləri öz ətri, öz sehri ilə şəhərimə qonaq gəlib. Elə bil ki, bütün şəhər incə, gözəl bir göy qurşağının sevincini yaşayır.**

3 noyabr! Bu günün bu şəhərdə, bu eldə öz adı, öz cazibəsi var. Bu gün Şirvanın tacı Göyçay şəhərində meyvələr şahı narın adına düzənlənən ənənəvi nar festivalı, nar bayramıdır.

Artıq hamıya məlumdur ki, nar meyvəsi dünyanın çox yerində yetişir. Çində, Hindistanda, Əfqanıstanda, Pakistanda, İranda, Türkiyədə, İspaniyada... Ancaq qəribədir ki, nar haqqında rəvayətlər daha çox qədim Yunan mifologiyasından gəlir. Daha sonra ərəb, Çin rəvayətləri. Narın əsl vətəninin hara olduğu dəqiq bilinməsə də, ancaq arxeoloji qazıntılar zamanı indiki Mingəçevir yaxınlığındakı tapıntılar bu meyvənin Azərbaycan ərazisində 5000 ildən yuxarı mövcudluğundan xəbər verir. Bütün bunlar öz yerində. Əsas məsələ budur ki, dünyanın ən dadlı, ən gözəl nar meyvələri Azərbaycanda, Göyçay rayonunda, məşhur Bığır kəndində və bu kəndlə həmsərhəd olan Qaraman, Qarabaqqal, Hacalıkənd və Qarayazı kəndlərində yetişir. Baxın, nar eləcə qədim rəvayətlərdən dövrümüzə yol gələ-gələ, yenidən və bir daha mifləşir, əfsanələşir, Göyçayın əbədiləşən simvolu kimi... Nar Kipr adasında məhəbbət ilahəsi Afroditadan tutmuş Əndəlus, Çin rəvayətlərindən də keçərək yeni-yeni əhvalatların, hadisələrin yaranmasına səbəb olmuşdur.

Qısaca bunun bir adı var: Göyçay narı möcüzədir!

...Şəhərin küçə və meydanları, park və bağları, xüsusilə Heydər Əliyev prospekti al-əlvandır. Sakinlər, qonşu rayonlardan gələn dostlar, eləcə paytaxtdan və xarici ölkələrdən gələn qonaqlar tədricən şəhərin müxtəlif yerlərində görünürlər.

Bu bir bayramdır, dünyada yalnız Azərbaycana, vətənin bir parçası olan Göyçaya bəxş olunmuş bayram... Dünyada tayı-bərabəri olmayan Göyçay narının, meyvələr şahının şərəfinə düzənlənən böyük bir el şənliyidir bu.

Bütün oxuculardan üzr istəyirəm, indiki halda yazmaya bilmərəm. Dünyanın ən paxıl, ən namərd, ən rəzil və şərəfsiz məxluqları biz Türklərin çox şeyinə ( !!!!!) əl uzatdıqları kimi, narımızı da oğurlamaq fikrində idilər. Alınmadı. Nar hara, aşot hara?

Nə isə, qayıdaq şənliyimizə. Göyçayda nar bayramı hər il unudulmaz anlarla davam edir. Şəhər bu gün də möhtəşəmdir. Meyvələr şahının vətəni hər dəfə beləcə dadlı sevinclərə qovuşub, şirin nəğmələrə tutulubdur. Bu bayramlar narı Göyçayın simvolik anlamından da yüksəklərə qaldırıb, şöhrətləndirib və əfsanələşdiribdir. Nar bu yurd üçün sanki özünəməxsus ruhundan da ayrılıb daha geniş, daha əzəmətli məna daşıyır. Bu bayram, bu festival ölkədə aparılan quruculuq işlərinin, sosial-iqtisadi inkişafın sevincini, qürurunu paylaşır. Əsl zəhmət, birlik, yüksəliş bayramı kimi yaddaşlara köçür. Bütün bunlar Dövlət Proqramlarında qarşıya qoyulmuş möhtəşəm vəzifələrin uğurlu həllini, sosial-iqtisadi yüksəlişin və başqa fərəhli məqamların göstəricisidir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili və xarici siyasətinin uğuru, regionaların daha da inkişafı üçün göstərdiyi müstəsna qayğı və diqqətin parlaq təzahürüdür. Yəni bu bayramlar, bu şənliklər təkcə Göyçayın deyil, bütövlükdə Azərbaycanımızın halal haqqıdır.

...Saat 11-ə qalır. Şəhərin giriş qapısında hörmətli qonaqların qarşılanması başlayır. Respublikamızın şəhər və rayonlarından gələnlər, xarici ölkə səfirliklərinin nümayəndələri, nazirlik və komitələrin yüksək vəzifəli təmsilçiləri, Milli Məclis üzvləri, mədəniyyət və incəsənət xadimləri, mətbuat nümayəndələri və digər dəvətlilər bu möhtəşəm nar festivalında iştirak etməyə, zövq almağa, gözəl bir gün yaşamağa gəliblər.









...Heydər Əliyev prospekti izdihamlıdır. Rəsmilər və festival iştirakçılarının nümayəndələri burada ucalan abidənin qarşısına gül-çiçək dəstələri düzərək ulu öndəri hörmət və məhəbbətlə yad edirlər. Dahi insanın, böyük Azərbaycan oğlunun vətən, xalq və onun gələcəyi haqqında arzu və istəklərinin həqiqətə çevrildiyi günlərdir bu bayram və şənliklər...

...Qonaqlar Heydər Əliyev prospektinə paralel olan N.Nərimanov küçəsindəki meydandan Mədəniyyət evi - Musiqi məktəbinə doğru addımlayırlar. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, vitse-prezident İsa Həbibbəyli, səfirlər, Milli Məclis üzvləri və digər hörmətli qonaqları göyçaylılar hərarətlə salamlayırlar. Burada milli geyimli qızlar qonaqlara nar şirələri, festivalın döş nişanlarını təqdim edir, məktəbli qızların ifasında "Nar bayramı" rəqsi ifa olunur.

"Şahzadə" qonaqları və bütün festival iştirakçılarını təbrik edir.

Sonra Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək qonaqları və bayram iştirakçılarını salamlayır. Mehdi Səlimzadə çıxışında böyük qələbəliklə keçirilən bu nar festivalının arzu və istəklərdən nur aldığını vurğulayaraq deyir:

- İndi həyatımızın elə bir sahəsi yoxdur ki, orada inkişaf və tərəqqi yüksək səviyyədə davam etməsin. Göyçay rayonu da istisna deyil, sürətli inkişaf yolundadır. Məlumdur ki, dünya şöhrətli Göyçay narı, həm də rayonun simvollarından biridir. Bu istiqamətdə çox işlər görülüb və bu işlər, bu tədbirlər davam etməkdədir. Bütün bunlar Göyçayın inkişafında və dünya miqyasında tanınmasında əhəmiyyətli rol oynayır. Göyçaylılar rayonun sosial-iqtisadi və mədəni yüksəlişinə xüsusi qayğı və diqqət göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həmişə minnətdar olduqlarını bildirirlər. Cənab Prezidentin apardığı uğurlu daxili və xarici siyasəti dəstəkləyən göyçaylılar bundan sonra da ölkəmizin inkişafı üçün yeni-yeni töhfələr vermək əzmi ilə çalışacaqlar...

...Bir birindən maraqlı festival tədbirlərinin iştirakçıları və tamaşaçıları sevinir, qürur hissi keçirirlər. Musiqi kollektivlərinin, idmançıların və digər iştirakçıların çıxışları bir-birini əvəz edir.

Küçə və meydanlar boyu qurulmuş müxtəlif sərgi və satış guşələrinə maraq həmişəki kimi böyükdür. Ancaq üzərində nar məzmunlu oyma işləri, suvenirlər, gənc rəssamların yaradıcılığı, məktəblilərin müxtəlif əl işləri, "Nar şəfa mənbəyidir" adlı xüsusi kollaj və başqa guşələr festival









iştirakçılarını özünə cəlb etməkdə, bir çox yeniliklərlə yaddaşlara köçməkdədir.

Festivalda Azərbaycan milli mətbəx nümunələrinin narla təqdimi, nardança, narşərab, nar mürəbbəsi və nardan hazırlanmış digər məmulatlar da xüsusi maraqla qarşılanır.

"Göyçay Süd" ASC-nin, "Gazelli" şirkətlər qrupunun, Az-Nar ASC-nin, Nar Assosiasiyasının, "Nar mobile" şirkətinin festival təqdimatları bayram ovqatını daha da yüksəldir.

Nahar fasiləsi ərəfəsi qonaqlar Az-Nar ASC-də yeni işə salınmış şərab sexi ilə tanış olurlar. Axşam saat 17-də incəsənət ustalarının iştirakı il konsert proqramı başlayır. Göyçay şəhərində keçirilən ənənəvi nar festivalı noyabr ayının 4-də də öz təmtəraqı ilə davam edir.

Rayona gələn xeyli sayda qonaqlar, ölkədaxili və xarici turistlər (200-ə yaxın avtobus) küçə və meydanlar boyu musiqi sədalarından zövq alır, sərgi-satış guşələrində gözəl, unudulmaz anlar yaşayırlar.

**...Həm də gözəl Göyçay şəhəri ilə, onun mehriban və qonaqsevər sakinləri ilə doğmalaşırlar...**

# İcra hakimiyyətindən Lerikdəki zəlzələ ilə bağlı açıqlama

**"Bu gün səhər saatlarında Lerik rayonunda baş verən zəlzələ sakinlər tərəfin hiss olunsa da, heç bir fəsadlar törətməyib".**

Adalet.az xəbər verir ki, bunu Modern.az-a açıqlamasında Lerik rayon İcra Hakimiyyəti başçısının müavini, rayon fövqəladə hallar komissiyasının sədri Habil Məlikov deyib.



Komissiya sədri bildirib ki, hadisə Lerikdə səhər saat 10:05 radələrində baş verib: "Səhər saat 10:05-də zəlzələ oldu. Hiss olundu. Amma çox güclü zəlzələ deyildi. Təxminən 3 bal gücündə hiss olundu. Hazırda sakitlikdir,hadisə nəticəsində hər hansı bir tikilinin dağılması barədə məlumat yoxdur. rayonun elektrik enerjisi, qaz və digər təchizatında heç bir problem yoxdur". Xatırladaq ki, Respublika Seysmoloji Xidmət Mərkəzinin yaydığı məlumata görə, yerli vaxtla saat 10:05:51-də Lənkəran stansiyasından 16 km qərbdə Lerik ərazisində zəlzələ baş verib.Zəlzələ 3 bal gücündə baş verib.

# Hətta qəddarlıqda da gözəllik tapmaq olar

**Kim Ki Duk2018-ci ilin 16 sentyabrında Almatı Film Festivalı çərçivəsində məşhur Koreya rejissoru Kim Ki Dukun master klassı təşkil edildi.**

**"Kino öyrənilə bilməz. Bu, həyatı yaşamaq kimidir. Filmlərimin materialı həmişə mənim öz şəxsi təcrübələrim oldu - deyə Kim Ki Duk vurğuladı". Rejissor şəxsi təcrübələrini tamaşaçılarla bölüşərkən belə söylədi...**

### *Kino barədə*

Ən məşhur filmim - "Yaz, Yay, Payız, Qış və yenə Yaz"- hansısa xalqdan, dövlətdən, müharibədən bəhs etmir. O, təbiətin qanunlarından bəhs edir. Onu çox insan izləyib, ancaq mənim digər filmlərimə də tamaşa edən insanlar, onlara xas olan müəyyən qanunauyğunluğa yəqin diqqət ediblər: filmlərimdə həmişə yaşam dövriyyəsini göstərməyə cəhd etmişəm - biz haradan başlayırıqsa, oraya da qayıdırıq. Buna görə də filmlərimin finalında yaxşı və pis adamlar yoxdur. Və bəlkə bu səbəbdən mən hələ də kinonun nə olduğunu bilmirəm.

### *Yeni film barədə*

Növbəti günlərdə "İnsan, məkan, zaman və yenə insan" adlı yeni filmim nümayiş olunacaq. Adı oxşardır, ancaq tamamilə fərqli ssenarisi var. Mənə elə gəlir əksər tamaşaçılar bu filmə 10 dəqiqədən artıq baxa bilməyəcəklər! Ancaq istərdim ki, siz səbirli olasız və filmi sona qədər izləyəsiz. Axı biz, həyat çətin, dolaşıq olduğu üçün, ömrümüzün 10 ilindən sonra ondan əl çəkmirik, elə deyil? Bu filmi çəkdiyim ərəfədə, sürəkli olaraq tarixdə baş verən müharibələr haqqında düşünürdüm: İkinci Dünya Müharibəsi, Vyetnam, Koreya müharibələri Hamısı ağlımdaydı.

Bu suala cavab tapmaq istəyirdim: İnsanlıq nədir? Özümə sual edirdim: əgər müharibələr dövr edirsə və təkrarlanırsa, bəs insanlıq nə üçün yaşamağa davam edir? Çox qəddar filmdi, tamaşa etmək çətindi, ancaq ortaya gözəl film çıxarmaq istəyirdim və buna çalışdım.

### *Gözəllik haqqında*

Biz zibili tullayanda heç ağlımıza da gəlmir ki, onun içinə düşən toxumdan günlərin bir günündə çiçək yarana bilər. Mənim üçün gözəllik buna bənzər prosesdir. Gözəllik özlüyündə mövcud deyil, onu, insana xas olan istənilən davranış və düşüncələrdə tapmaq olar, hətta ən qəddarlarında belə. Başqa cür desək, qara rəng nə qədər qapqara olsa, ağ rəng bir o qədər bəmbəyaz olacaq.

### *Ssenarilər barədə*

Mənim kinematoqrafa qarşı sevgim ssenarilər yazmaqla başladı. Bu prosesin çətinliyi barədə danışmaq elə də vacib deyil, ancaq deyə bilərəm ki, filmin ərsəyə gəlməsinə həsr olunan enerjinin 80%-i məhz ssenariyə sərf olunur. Şəxsən mənim üçün ən əsas mərhələ, hekayənin sonrakı gedişatına təkan verəcək əsas ideyanı düşünüb tapmaqdır. İdeya tapmaq üçün sadəcə oturmaq, iç-



mək, çəkmək və fantaziya qurmaq bəs deyil, ssenari belə yaranmır! Mənə görə ssenari qəfil aldığımız məktuba bənzəyir, bu, sənin qapının qəfil döyülməsidir. Mənimçün ssenarinin redaktə mərhələsindən neçə dəfə keçəcəyi və bu işə nə qədər zaman sərf olunacağı önəmli deyil, həmin ssenarinin yeni tapıntı, kəşf olması önəmlidir.

### *Milli kinematoqraf haqqında*

Mənim üçün kinematoqrafda milli sərhədlər və dövlət sərhədləri mövcüd deyil. Əgər ayrıca götürülmüş hansısa ölkənin filmlərində çox məxsusi çalarlar olsaydı, siz yəqin ki, indi burada olmazdınız. Bir filmin yapon, koreya, qazax yaxud rus filmi olduğu fərq etmir, kino bizim qəlbimizin səsidir.

### *Film qəhrəmanlarının susqunluğa barədə*

Özümü çox bəxtigətirmiş rejissor hesab edirəm və digər rejissorlardan ən çox, demək olar dialoqsuz filmlər çəkməyimlə fərqlənirəm. Bu davranışımın səbəbləri barədə düşünmüşəm. Məsələ burasındadır ki, karyeramın əvvəllərində kinonu öyrənərkən, həmin filmlərin dilini başa düşmürdüm (mən indi də ingiliscə danışmağı bacarmıram) və təkcə görüntülərə, mənzərələrə tamaşa edirdim. Həmin məqamda, hərəkətlərimizin, davranışlarımızın sözlərimizdən daha ifadəli, aydın, aşkar olduğunu dərk edirdim. Əlbəttə ki, bütün filmləri bu formada çəkmək maraqsız alınar. Buna görə də 2010-cu ildən bəri mənim filmlərində də dialoqlar peyda olmağa başladı.

### *Depressiyanı yenmək haqqında*

"Ariran" adlı nəğmə var. Bu nəğmədə koreya insanının bütün qəm-qüssəsi ifadə olunub: doğuluşdan gələn kədər, dünyada yaşamağın hüznü, taleyin bəxş etdiyi qüssə. Həyat mənə ağır gələndə bu nəğməni oxuyuram.

### *Kinoda musiqi barədə*

Hər filmdə musiqinin olması vacib deyil. Musiqi, filmdə nəsə çatışmayanda lazım olur. Ki, görüntüləri süsləyib zinətləndirsin. Axı sükutun özü də bir musiqidir!

### *Aktyorlarla çalışmaq barədə*

Kastinq keçirərkən aktyorun ssenarini nə dərəcədə anladığını qiymətləndirirəm. Onun obrazı yaxşı oynamasından ziyadə, yaxşı hiss etməyi mənim üçün önəmlidir. Əlbəttə ki, iş prosesində təkliflərimi irəli sürür, vəziyyətə nəzarət edirəm. Çəkilişlər zamanı aktyorları dəyişməməyə və roluna uyğunlaşmaqda çətinlik çəkənlərə kömək etməyə çalışıram. Aktyor işinin öhdəsindən yetərincə gəldikdə, mən sadəcə kənarda oturub susuram.

### *Büdcə haqqında*

**Əgər əlinizdəki büdcə kiçikdisə, onda siz qısa müddət ərzində bütün ehtiyatlarınızı, qüvvənizi 100 % işə yönləndirərək çalışmağı bacarmalı və eyni zamanda rejissor, operator, montajor və yeri gəlsə aktyor olmağı bacarmalısız. Belə gərgin iş nəticəsində yaxşı film ərsəyə gətirməyiniz və diqqət cəlb etməyiniz mümkün olacaq.**

**Oğuz Ayvaz**